

Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

**№ 18-19 (571-572)** | **30 avqust 2018-ci il** | **Qəzet 1937-ci ildən çıxır** | **Qiyməti 40 qəpik**




## Lerik rayonunun Piran–Hamarat–Vijaker avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Doqquz min nəfər əhalinin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirən Piran–Hamarat–Vıjaker avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11,3 milyon (on bir milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2018-ci il.*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti:*

**Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.**

* * *

**Mən çox şadam ki, Lerikdə inkişaf çox sürətlə gedir. Rayonun inkişafı sözün əsl mənasında həm yerli sakinlər, həm də ölkə uçün çox vacibdir.**

## Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Lerikdə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə avqustun 10-da Lerik Rayon Mədəniyyət Mərkəzində Masallı, Lənkəran, Astara, Cəlilabad, Biləsuvar, Yardımlı və Lerik rayonlarından olan vətəndaşları qəbul edib.



Öncə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etmişlər. Sonra mədəniyyət mərkəzində rayon ümumtəhsil məktəblərinin direktor və müəllimlərinin iştirakı ilə cari il məzunlarının buraxılış imtahanlarının nəticələri müzakirə edilmiş və gələn il keçiriləcək buraxılış imtahanlarını keçirilmə qaydaları izah olunmuşdur.

Mədəniyyət Mərkəzində 30-a yaxın vətəndaş qəbul edilərək dinlənilmişdir. Qəbul zamanı Dövlət İmtahan Mərkəzinin səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həllini tapmış, araşdırılması zəruri olan bir sıra müraciətlər isə qeydiyyata götürülərək onların həlli üçün konkret tapşırıqlar verilmişdir.

Vətəndaşlar yaradılan şəraitdən razılıq edib, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüskarı olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



## Şuranın növbəti iclası keçirildi

***Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Şuranın növbəti iclası keçirildi.***

Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov tədbir iştirakçılarını salamlayaraq Şura iclasının gündəliyində duran məsələlər barədə məlumat verdi.



İclasda “Rayonun Blaband və Əliabad ərazi icra nümayəndəliklərində Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 74 və 75-ci maddələrinə “tikintisinə icazə tələb olunan tikinti obyektləri” və “tikintiyə icazə verilməsinin ümumi qaydaları”na uyğun olaraq mövcud vəziyyətin araşdırılması, görülmüş tədbirlərin vəziyyəti barədə” rayon icra hakimiyyəti başçısı aparatının Memarlıq və Tikinti şöbəsinin müdiri, baş memar Əflatun İbrahimovun arayışı dinlənildi. Rayonda, o cümlədən yoxlama aparılmış Blaband və Əliabad ərazi icra nümayəndəliklərində tikintisinə icazə tələb olunan tikinti obyektləri və tikintiyə icazə verilməsinin ümumi qaydaları məsələləri geniş müzakirə olundu.



Rayon icra hakimiyyətinin başçısı Şura iclasının gündəliyinə daxil edilmiş məsələ ilə bağlı görülən işlər və qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Müzakirə olunan məsələ ilə bağlı Şura iclasında müvafiq qərar qəbul edildi.





## Vətəndaşlarla səyyar görüş-qəbul keçirildi

***Rayon icra hakimiyyəti başçısı, hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Tikəband kənd inzibati əraziləri üzrə Tikəband, Davradibi, Zardoni, Nıso, Hücü və Təndül kəndlərindən olan vətəndaşlarla səyyar görüş-qəbul keçirildi.***

Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov görüş iştirakçılarını salamlayaraq bildirdi ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullar qrafikinə uyğun olaraq bu gün növbəti dəfə sizlərlə görüşürük. Belə görüşlərin keçirilməsində əsas məqsədin ərazilərdə əhalini narahat edən problemlərin öyrənilməsi, bu problemlərin həllinə nail olmaqla əhalinin rifah hallının daha da yaxşılaşdırılması istiqamətində işlərin görülməsinin vacib olduğunu qeyd etdi.

İcra hakimiyyəti başçısı regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul edilmiş Dövlət Proqramlarının uğurlu icrası nəticəsində ölkəmizin, o cümlədən rayonumuzun da inkişaf etdiyini, əhalinin rifah halının daha da yaxşılaşdığını vurğuladı. Ötən dövr ərzində ərazidə, Tikəband, Davradibi və Təndül kəndlərində yeni məktəb binalarının tikildiyini, Tikəband kəndində yeni elektron ATS-in quraşdırıldığını, Aşağı Tikəband ibtidai məktəbi üçün modul tipli yeni binada son tamamlanma işlərinin aparıldığını, Tikəband ərazisində yaşayan əhalinin istifadə etdiyi Piran-Davradibi-Veri avtomobil yolunun mütəmadi təmir olunduğunu, yolun Davradibi kəndi ərazisində çayın üzərində dəmir-beton konstruksiyalı körpünün inşa edildiyini qeyd etdi və Dövlət Proqramına uyğun olaraq rayonda, o cümlədən Tikəband kənd inzibati ərazi dairəsi üzrə gələcəkdə görüləcək işlər barədə ətraflı məlumat verdi.

Səyyar görüş-qəbullarda çıxış edən vətəndaşlardan Ağamoğlan Nəbiyev, Ağababa Rəhimov, Fail Abbasov, Qədir Rüstəmov, Fəxrəddin Ağayev, Gülağa Salayev, Əlövsət Əliyev və digərləri çıxış edərək görülən işlərə görə minnətdarlıqlarını bildirdilər və kənddaxili elektrik xətlərinin təmirinə, Tikəband kəndində içməli su təminatının yaxşılaşdırılmasına, Tikəband kənd məktəbinin su anbarının, Çayrud-Tikəband avtomobil yolunun təmirinə, ərazinin kəndlərinin qazlaşdırılmasına, Davradibi kəndində yeni ATS-in quraşdırılmasına, Davradibi kəndi ərazisində çay plantasiyalarının bərpasına və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyəti başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd etdi, aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

Ay ərzində Piran, Çayrud, Veri və Pirasora kənd ərazi icra nümayəndəliklərində vətəndaşlarla səyyar görüş keçirilmişdir.

## Bayraq muzeyi hazırdır

***Bayraq muzeyi Heydər Əliyev meydanında yerləşir. Tikinti işlərinə Heydər Əliyev Fondu tərəfindən 2018-ci ilin mart ayında başlanılmışdır. Tikintinin ilkin dəyəri 450 min manatdır. Muzey binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir.***

Binanın ümumi sahəsi 470 kvadratmetr, sərgi zalı 305 kvadratmetrdir, xidməti otaqların sahəsi isə 20 kvadratmetdir. Binada hörgü işləri tam başa çatdırılmış, damı örtülmüş, daxili elektrik və su xətləri çəkilmiş, kanalizasiya şəbəkəsi quraşdırılmış, döşəmə mərmər piltələrlə üzlənmişdir. Tavan hissəsində və daxili divarlarda bəzək işləri aparılmışdır.

Binanın giriş hissəsindəki pilləkənlərin mərmərlə işlənməsi tam başa çatdırılmış, binanın fasad hissəsinin milli ornamentlərə uyğun ağlay daşlarla üzlənmə işləri davam etdirilir.

Binanın ətrafındakı ərazidə abadlıq işləri həyata keçirilir. Tikinti işlərinin avqust ayının sonunadək bşa çatdırılması nəzərdə tutulmuşdur.

## Müqəddəs Qurban bayramı qeyd olundu

22 avqust 2018-ci il tarixdə müqəddəs Qurban bayramı münasibətilə Lerik rayonunda tədbir keçirildi. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, rayonun hüquq mühafizə, idarə, təşkilat və müəssisə rəhbərləri, ağsaqqallar, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.



Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov bayram münasibətilə rayon sakinlərini təbrik etdi. Qurban bayramının müsəlman aləminin ən gözəl və tarixi, ruzi-bərəkət bayramlarından biri olduğunu vurğulayaraq ölkəmizdə həmişə olduğu kimi bu ildə də dövlət səviyyəsində iki gün bayram elan edildiyini diqqətə çatdırdı. Rayon icra hakimiyyəti başçısı bu günlərdə ölkəmizin hər yerində Allah yolunda qurbanların kəsildiyini, ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab Prezidentimizin rəhbərliyi ilə xalqımızın daha da firavan və əmin-amanlıqla yaşaması, dövlətimizin inkişafı və tərəqqisi üçün dualar edildiyini, şəhidlərimizin ölməz xatirəsinin ehtiramla yad olunduğunu, insanlar arasında şəfqət və mərhəmət duyğularının nümayiş etdirildiyini qeyd etdi.

Sonra qurbanlar kəsilərək Lerik rayonunda yaşayan şəhid ailələri, Qarabağ müharibəsi və Böyük Vətən Müharibəsi iştirakçılarına və imkansız ailələrə, ümumilikdə 510 ailəyə bayram sovqatı verildi.

# Lerikin su təchizatı yaxşılaşır

## Prezident İlham Əliyevin Sərəncamları uğurla həyata keçirilir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildə vəzifəsinin icrasına başlayarkən regionların sosial-iqtisadi inkişafını özünün fəaliyyətinin əsas istiqamətlərindən biri kimi elan etmişdir.***

### Dağlarda həyat canlanır

Bu hədəfə çatmaq üçün regionların sosial-iqtisadi inkişafına dair üçüncü çoxşaxəli Dövlət Proqramı uğurla həyata keçirilir. Bu proqramları bölgələri dirçəldən mühüm konsepsiya adlandırmaq olar. Dövlət Proqramında nəzərdə tutulmuş layihələrin uğurla yerinə yetirilməsi respublikamızın hər bir bölgəsinə yeni ruh, yeni həyat verir, iqtisadiyyatın dayanıqlı inıkişafını təmin edir, işsizliyi aradan qaldırmağa kömək edir. Bir sıra sosialyönümlü layihələr bu gün sürətlə icra olunur.

Bunu həmişə "ucqar", "geridə qalmış", dotasiya hesabına yaşayan Lerik rayonunun timsalında aydın görmək olar. Bu gün Lerik şəhərinin



mərkəzi tikinti, abadlıq və quruculuq işlərinin davam etdiyi məkanı xatırladır. Hələ kəndləri demirik. Uzaq illərdən bəri öz həllini gözləyən yol, qaz çəkilişi, məktəb tikintisi, su-kanalizasiya xətlərinin yenidən çəkilməsi, Lerik qəsəbəsinin müasir tipli şəhərə çevrilməsi, şəhər statusu aldıqdan sonra yeni görkəm alması buna parlaq bir misaldır. Dağlarda həyat canlanır, hamı özünü torpağın, ölkənin sahibi kimi hiss edir, ölkə başçısına, Azərbaycanın gələcəyinə inanır...





### Lerikin tarixində ilk dəfə dünya standartlarına uyğun su-kanalizasiya sistemi qurulur

Lerik Su-Kanal İdarəsinin rəisi Asif İmanov təcrübəli mütəxəssisdir. O, 30 ildən çoxdur ki, rayonda su təsərrüfatında çalışır, hazırda bu sahəyə rəhbərlik edir. A.İmanovdan Lerik şəhərinin su təchizatını yaxşılaşdırmaq məqsədi daşıyan tikintilərdən danışmağı xahiş edirəm. O, .fərəhlə deyir:

- Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2-ci milli su təchizatı və çirkab su kanal sistemlərinin yenidən qurulması işləri Lerik şəhərində başa çatmaqdadır. Respublika Meliorasiya və Su Təsərrüfatı ASC Türkiyənin "Gəlişim" LTD və "Körpübinatikinti" MMC-ni Lerikdə su təchizatı və çirkab su-kanal sisteminin müasir tələblərə uyğun qurulmasına səfərbər etmişdir.

Tikintiyə başlanan gündən bəri sutkalıq gücşü 2500 kubmetr su tutan qurğular tikilib, 4 su anbarı inşa olunub. 1 yardımçı nasos stansiyası qurulub. Zuvanddakı su mənbəsindən Lerik şəhərinə 16,5 kilometr magistral boru (HDP) kəməri çəkilib, şəhər daxilində 30 kilometr su xətti çəkilib. 40 kilometr həcmində çirkab su şəbəkəsi, 2 ədəd çirkab su nasos stansiyası qurulub. 1 ədəd əsas çirkab su təmizləmə qurğusu istismara tam hazırdır. Bütün qurğular SKAYP - uzaqdan idarəetmə sistemləri ilə təchiz olunub.

### Alternativ su kəməri çəkilir

Dünya təcrübəsindən məlumdur ki, müxtəlif təbiət hadisələri nəticəsində mənbələrdə içməli su azalmaqdadır. Buna görə də alternativ su mənbələri axtarılıb üzə çıxarılır, su kəmərləri çəkilir. Lerik şəhərinə 2,5 kilometr məsafədən çəkilən Mastayıl çayından çeşmə və bulaq suyundan istifadə olunacaq. Bu çayda suyu həcmi saniyədə 30-40 litrdir. Bu məqsədlə Azərbaycan Elm İstehsal Birliyi - MMC hazırda 500 metr hündürlüyə su vuran nasosların yerini hazırlayır. Çaydakı su mənbəsində relyef çox çətin idi, sərt qayaları yarmaq lazım gəlirdi. Qranit daşları, qayanı ağır texnika vasitəsilə mənbəyə qədər çətinliklə də olsa iri və bərk daş parçalarından təmizləndi, kiçik dəmir-beton bənd tikildi. Su mənbəyində drenaj sistemli suqəbuledici bənd quruldu.



ondan insanların istifadəsinə verilir. Bu mənada Lerik şəhəri də istisna deyil. Əhali də artır, suya tələbat da.

Asif İmanov Lerik şəhərinə və kəndlərə alternativ su kəmərinin çəkilməsi barədə sorğumuzu belə cavablandırdı.

- Prezident İlham Əliyevin Sərəncamına əsasən şəhər və kəndlərdə yaşayan əhalinin içməli su təchizatını yaxşılaşdırmaq məqsədilə alternativ su mənbələri üzə çıxa-

Hazırda iç texnologiya uyğun davam etdirilir.

***- Bəs Şingədulan, Sors, Mulalan, Geskon kəndlərində su kəməri çəkilməsinin vəziyyəti nə yerdədir?***










- Prezidentin Sərəncamına əsasən adını çəkdiyimiz kəndlərə içməli su kəməri çəkilir. Şivlə və Biləvər kəndlərini də su ilə təchiz etmək nəzərdə tutulub. Magistral və kənddaxili xətlərdə iş davam etdirilir, 100 kubmetr tutumlu su anbarı tikmək üçün hazırlıq görülür.

* * *

Dünyada içməli su getdikcə azalır. Küveytdə benzindən, İtaliyada şərabdan, Yaponiyada süddən baha satılır içməli su. Bəzi ölkələrdə içməli su dəniz suyundan alınır. Çilidə, Peruda, Saxara və başqa ölkələrdə şirin su çatışmır. Belə nümunələrə baxanda bizə min şükür. Su həyatdır, paklıq və sağlamlıqdır.

Suya laqeydlik, israfçılıq, suyu çirkləndirmək olmaz. Su Allahın insana bəxş elədiyi əvəzsiz nemətdir. Allah bizi su qıtlığı ilə imtahana çəkməsin.

***İdris Şükürlü***

# PROKURORLUQ ORQANLARI BÖYÜK İNKİŞAF YOLU KEÇİB

***Müasir Azərbaycan Respublikasının prokurorluq orqanlarının Konstitusiya səviyyəsində 1918-1920-ci illərdə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olmasının təsdiqi ümummilli lider Heydər Əliyevin xalqımızın tarixi irsinə qayğılı münasibətin bariz nümunəsidir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılaraq əsası qoyulmuş milli prokurorluq orqanları məhkəmə sistemində fəaliyyət göstərmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində onun 17 iyul 1998-ci il tarixli sərəncamı ilə 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.***

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1998-ci il tarixli qərarı ilə milli prokurorluq orqanlarının yaradılmasının elan olunmasına baxmayaraq həmin dövrdə prokurorluq orqanlarının formalaşdırılması qeyri-adi dərəcədə mürəkkəb və çətin bir proses idi. Bir tərəfdən gərgin ictimai, siyasi və hərbi vəziyyətdə yenicə yaradılmış prokurorluq orqanlarına kifayət qədər maliyyə və təşkilati yardım göstərilməsi AXC hökümətinin imkanı xaricində olmuşdur. Xalq Cümhuriyyəti dövründə prokurorluq orqanlarının təşkili və fəaliyyəti ilə əlaqədar yeni mərhələ Parlament tərəfindən "Hərbi Məhkəmələr haqqında" 14 aprel 1919-cu il tarixli Qanunun qəbul edilməsi ilə başlanıldı. Həmin qanuna əsasən hərbi prokurorluq orqanları yaradıldı və onların hüquqi statusu müəyyənləşdirildi. Qanunun 8-ci maddəsinə əsasən hərbi məhkəmələrin yanında prokurorluq fəaliyyət göstərirdi, onun da tərkibi prokurordan, onun bir köməkçisindən, iki hərbi müstəntiqdən və hərbi-məhkəmə təsisatı üzrə iki nəfər işçidən ibarət idi. "Hərbi məhkəmələr haqqında" qanunun qəbul edilmiş qərardan şikayət etmə, şikayətə baxılması qaydası, müddəti, cəzanın yüngülləşdirilməsi, bağışlama üçün vəsatətin verilməsi və ona baxılması qaydası, işin yeni məhkəmə baxışına qaytarılması və s. bir sıra prosessual hüquq normaları müəyyənləşdirilmişdir ki, bu da hərbi prokurorluq orqanlarının fəaliyyətinin hüquqi tənzimlənməsində mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə son qoyuldu. Sovet hökumətinin qurulması ilə totalitar üsul-idarə, repressiyalar, haqsızlıqlar, özbaşınalıqlar, azərbaycanlılara qarşı soyqırım başladı. Azərbaycan Məhkəmə Palatası, Bakı və Gəncə dairə məhkəmələri, müvafiq prokurorluqlar və istintaq hissələri ləğv edildi. Bunların əvəzinə Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixli dekreti ilə qəza və quberniya Sovetlərinin icraiyyə komitələri yanında ittihamçılar və müdafiəçilər kollegiyaları yaradıldı. 11 iyul 1922-ci il tarixli dekretlə fəaliyyəti bərpa edilmiş Azərbaycan prokurorluğu müstəqil dövlət orqanı olmayıb Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının sturuktur qurumu kimi fəaliyyət göstərirdi.

1937-ci ildə Azərbaycan SSR Konstitusiyasında prokurorun bütün nazirliklərin və onlara tabe olan idarələrin, ayrı-ayrı vəzifəli şəxslərin, habelə vətəndaşların qanunlara dürüst əməl etmələrinə ali nəzarəti həyata keçirdiyi göstərilmişdir.

Sovet hakimiyyəti dövründə prokuror nəzarətinin gücləndirilməsi və təkmilləşdirilməsi işi "SSRİ Prokurorluğu haqqında" 30 noyabr 1979-cu il tarixli Qanunla bağlıdır. Bu qanun yeni dövrdə, yəni qanunvericilik aktlarının bütövlükdə yeniləşdiyi dövrdə prokurorluq orqanlarının fəaliyyətini daha tam və dolğun formada tənzimləyirdi.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası hüquqi, dünyəvi və demokratik quruculuğu yolunu seçdi. Respublikamız keçmiş İttifaq dövlətinin ərazisində qüvvədə olan mövcud qanundan istifadə edə bilməzdi. Azərbaycan xalqının milli mentalitetini, dövlətçilik ənənələrini, milli xüsusiyyətlərini, ictimai-siyasi inkişaf səviyyəsini, Respublikamızda prokurorluq orqanlarının çoxillik təcrübəsini, Avropa ölkələrinin və dünyanın inkişaf etmiş ölkələrinin prokurorluq orqanları haqqında qanunlarını, hüquqi dövlət quruculuğu tələblərini, Avropa Şurası və digər beynəlxalq təşkilatların tövsiyələrini, ən başlıcası da insan hüquqları və azadlıqları ilə bağlı bütün beynəlxalq hüquqi aktların tələblərini nəzərə almaq və bütün bu tələblərə və prinsiplərə cavab verən bir qanun hazırlamaq vəzifəsi çox gərgin əmək tələb edirdi.

Lakin bütün mürəkkəbliyinə və çətinliyinə baxmayaraq "Prokurorluq haqqında" yeni Qanun hazırlandı və qəbul edildi. Bu qanun layihəsinin hazırlanmasında prokurorluq əməkdaşları da yaxından iştirak etmiş, onların təkliflərinin böyük əksəriyyəti qanun layihəsi hazırlanarkən nəzərə alınmışdır. Qəbul olunmuş "Prokurorluq haqqında" yeni qanunda prokurorluğun fəaliyyətinin əsas prinsipləri və istiqamətləri, prokurorluq orqanlarının sistemi və təşkilinin əsasları, prokuror aktlarının növləri və xarakteri, prokurorluq orqanları kadrlarına ümumi tələblər, prokurorluq orqanlarının hüquqi və sosial müdafiəsi, eləcə də prokurorluğun fəaliyyətinin digər məsələləri öz hüquqi həllini tapmışdır.

Beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimləmə prosesi beynəlxalq standartlara cavab verən səviyyəyə yüksəlmişdir.

***Bəhruz İbrahimov,***
***Lerik rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# Qanvermə aksiyası keçirildi

Lerik Rayon Mərkəzi Xəstəxanasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına uyğun



olaraq Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı və Lerik Rayon İcra Hakimiyyətinin dəstəyi ilə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən xəstə uşaqlar üçün qanvermə aksiyası keçirildi.

Qanvermə aksiyasında rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov, aparatın məsul işçiləri, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri - gənclər və qadınlar böyük coşqu ilə könüllü olaraq qana ehtiyacı olan insanların köməyinə çatmaq



üçün aksiyaya qoşulmuşdular.

Aksiyada ümumilikdə 880 nəfər rayon vətəndaşı iştirak edirdi. Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hematoloqları tərəfindən hər bir donorun sağlamlığı öncədən yoxlanılır, onlardan qan analizi götürülərək sağlam olub-olmamaları müəyyənləşdirilirdi. Tibbi personalın yoxlamasından sonra tam sağlam olan 147 nəfər vətəndaşdan qan götürüldü. Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaqdır.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş, belə aksiyalarda yaxından iştirak etməyin həm də vətəndaşlıq borcu olduğunu qeyd etdilər.

# Vətəni qorumaqdan qürur duyuruq



Mən Naxçıvan Muxtar Respublikasında Milli Ordu sıralarında xidmət etməkdən qürur duyuram. Şərur rayonunun mühüm strateji əhəmiyyətə malik olan Günnüt kəndi 1992-ci ildə işğal edilmişdi. Əlahiddə Ümumqoşun Ordu tərəfindən həmin kənd və ətraf ərazilər işğaldan azad olunub. Bu əməliyyat bir daha düşmənə göstərdi ki, onun istənilən təxribatının qarşısı Azərbaycan ordusu tərəfindən qətiyyətlə alınacaqdır.

Vətənimizin qorunmasının, işğal altında olan orqanlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən Ulu öndər tez-tez səngərlərdə olur, əsgər və zabitlərlə şəxsən görüşür, ölkənin müdafiə qüdrətini artırmaq üçün ciddi addımlar atırdı. Bu gün insanların orduya güvənməsi, inamı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlərin nəticəsidir.

Biz Ali Baş Komandanın əmrinə hər an hazırıq. Yeganə məqsədimiz Vətənimizin sərhədlərini etibarlı şəkildə qorumaq, işğala məruz qalmış torpaqlarımızı azad görməkdir.

***Taleh Ağayev,***
***"N" saylı hərbi hissənin əsgəri***

# Lerik rayonuna yeni polis rəisi təyin edilib



Daxili işlər naziri, general-polkovnik Ramil Usubov Lerik Rayon Polis Şöbəsinə yeni rəis təyin edilib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubovun əmri ilə bu vəzifəyə polis polkovniki Ayaz Cəfərov təyin olunub.

Xatırladaq ki, A.Cəfərov İmişlı Rayon Polis Şöbəsinin rəisi vəzifəsində işəlmişdir.

# Piran-Hamarat-Vıjaker avtomobil yolunun tikintisi getdikcə sürətlənir

***28 yaşayış məntəqəsinin əhalisi Piran-Hamarat-Vıjaker avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamı alqışlayır***



"Lerik" qəzetinin 23 iyun 2018-ci il tarixli sayında "Yol, mədəniyyət, rahatlıq, ünsiyyət vasitəsi, bir sözlə, iqtisadiyyatın şah damarı" sərlövhəli yazı dərc etmişdik. Qəzet rayonda yayıldıqdan sonra oxuculardan xeyli məktublar almışıq. Kənd sakinləri həsrətlə, səbirsizliklə, ümidlə bu yolun tikilməsinin yolunu gözləmiş, yuxarı təşkilatlara, aidiyyəti qurumlara çoxlu müraciətlər etmişlər. Atalar ocaq olmasa, tüstü çıxmaz - deyiblər. Budur, çoxdan gözlənilən həsrətə son qoyulub. Daha doğrusu, həmin yolun tikintisi ilə bağlı yuxarıda adı qeyd olunan 18 avqust 2018-ci il tarixli Prezident İlham Əliyevin Sərəncamı yerinə düşüb, 28 yaşayış məntəqəsində güzəran keçirən adamların hədsiz sevincinə, ruh yüksəkliyinə səbəb olub.



Onlar Prezidentin Sərəncamından razı qaldıqlarını bildirirlər. Göstərirlər ki, ölkə başçısı dünyada məqsədyönlü siyasət yeridir, Azərbaycanın maraqlarını təmin edir, nüfuzunu artırır. Regionların durmadan inkişafı, şəhər, qəsəbə və kəndlərin simasını dəyişməsi fərəh doğurur. İqtisadiyyatın dinamik inkişafı respublikada tikinti-quruculuq işlərinin, xüsusilə də yol infrastrukturunun yenidən qurulmasına böyük təkan vermişdir.

Qəzetdə qeyd etdiyimiz kimi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı Azərbaycanda yol infrastrukturunun təkmilləşədirilməsinə, müasirləşdirilməsinə, yeni yolların, körpülərin, yolayrıcıların tikilməsinə, ən əsası da əhalinin rahatlığının təmin olunmasına səbəb olmuşdur. Bütün sosialyönlü tədbirlərin həyata keçirilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Cənab Prezident yeni və rahat yolların açılışı mərasimlərində iştirak edir, göstəriş və tövsiyələrini əsirgəmir. Ölkə boyu yol-nəqliyyat infrastrukturunun yenidən qurulması uğurla davam etdirilir. Lerik rayonunda da yol tikintisi ilə bağlı layihələr icra edilir. Prezidentin imzaladığı Sərəncamda deyilir: "Doqquz min nəfər əhalinin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirən Piran-Hamarat-Vıjaker avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 11.3 (on bir milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın".

Yolun tikintisini aparan iş icraçısı Pərviz Mustafayevlə iş zamanı görüşdük. O, çox qayğılı görünürdü, demək olar ki, yolun tikintisi zamanı hər şeyə nəzarət edir, göstərişlər verir, çətinlikləri aradan qaldırmağa çalışırdı. P.Mustafayevdən Piran-Hamat-Vıjaker avtomobil yolunun tikintisi, burada çalışanlar barədə oxuculara məlumat verməyi rica edirəm. O, deyir:

- Yolun tikintisi, gördüyünüz kimi standartlara uyğun olaraq davam etdirilir. Yolda suötürücü borular qoyulmuş, yolun gediş hissəsinə daş və çınqıl döşənmiş yolun çiyinləri bərkidilmiş, digər hazırlıq işləri görülmüşdür. 27 kilometr yol birinci qat asfalt döşənmişdir. Hazırda ikinci qat asfalt işləri davam etdirilir.

Yola asfalt daşıyan iritonnajlı maşınların sürücülərindən Mütəllim Ruhullayev, Qalası Şirəliyev, Daşdəmir Məmmədov, Ariz Əhədov, Sadiq Sadıqov, Şakir Mahmudov, Ramin Abbasov, Aydın Əliyev, Mehdi Qəribov, asfaltda işləyən fəhlələrdən Amid Ağayev, Tumar Nəsirov, Vahid Səfərov, Ulduz Zohrabov, asfaltyayıcı, kipləşdirici maşınların sürücüləri tapşırıqları vaxtında yerinə yetirirlər. Yol çəkənlər vaxtdan səmərəli istifadə etməklə yanaşı, keyfiyyət amili də diqqət mərkəzində saxlayırlar.

Çox keçməz ki, Piran-Hamarat-Vıjaker avtomobil yolu, istismara veriləcək, əhalinin uzun illərdən bəri yaşadığı problemə son qoyulacaq, Piran bölgəsi indikindən daha çox qonaq-qaralı olacaq. Ecazkar təbiətə tamaşa edənlər təkrarsız gözəlliklərdən həzz alacaqlar.

***İ.Mütəllimoğlu***





*İslami dəyərlər*

# Vəhdət, birlik ayı - mərəhhəmlik

***Şəhidlik məktəbinə hörmətlə yanaşılmalıdır***

"Tövbə" surəsində (ayə 36) deyilir: "Həqiqətən, Allah yanında, Allah kitabında ayların sayı göyləri və yeri yaratdığı gündən on iki aydır. Onlardan dördü (döyüş üçün) haraımdır" - ifadəsində bildirildiyi kimi, bu dörd aydan biri vacib və fərqli xüsusiyyəti olan aylardır və o aylara qarşı hörmət olunması bildirilmişdir.

Peyğəmbərimiz (s) Məhərrəm ayını "Allahın ayı" adlandırmışdır, İlahi bərəkət və bolluğun çoxaldığı bir aydır. Allahın ayı, günü, ili olmaz, amma Allahın rəhmətinə çatmağın əhəmiyyətli bir fürsəti olduğu üçün Peyğəmbərimiz (s) tərəfindən belə ifadə edilmişdir.

Məhərrəm ayının 10-cu günü İmam Hüseynin (ə) və onun 72 nəfərdən ibarət silahdaşlarının və ailə üzvlərinin şəhadətə yetişdiyi Kərbəla faciəsi ilə İslam tarixinə düşmüşdür. Əslində, bu faciə deyil, müsəlmanların haqq işi və əqidə uğrunda mübarizəsi, əyilməzlik, qəhrəmanlıq, şəhidlik məktəbinə qovuşması idi.

680-cı ildən indiyə kimi İslam Peyğəmbərinin (s) müsəlmanlara əmanət kimi qoyduğu sevimli nəvəsi İmam Hüseyn (ə) və onunla birlikdə Kərbəlada şəhid olmuş şəxslərin xatirəsi yad olunur, onların ideyalarını yaşatmaq məqsədilə müxtəlif mərasimlər keçirilir.



***Kərbəlayi Rauf Saği oğlu, Lüləkəran kənd məscidi dini ismasının sədri, məscidin imamı***

Biz tarixə nəzər salanda görürük ki, məhərrəmlik mərasimləri heç də matəm məqsədilə keçirilməyib. Kərbəla hadisələrindən sonra İmam Səccad (7) və İmam Hüseynin (ə) bacısı xanım Zeynəb (s) Kərbəladakı faciələrin canlı şahidləri olmalarına baxmayaraq, müxtəlif mərasimlərdə orada şəhid edilənlərə matəm tutub ağlamaqdan çox, onların məqsədləri, yolu, əqidəsi, əyilməzliyi, qəhrəmanlığı barədə geniş məlumat vermiş, insanlara həmin hadisələrin mahiyyətini anlatmışlar. Qeyd etdiyim kimi, Kərbəla hadisələrinin bir qütbündə qətl və cinayət durursa, digər qütbündə isə qəhrəmanlıq və sücaət, fədakarlıq, İslamın uca dəyərləri uğrunda mübarizə dayanır. Hər il keçirilən Məhərrəmlik mərasimlərində İmam Hüseynin (ə) uğrunda mübarizə apardığı dəyərlərin yaşadılması və insanlara çatdırılması məqsədini daşımalıdır. Baş yarmaq, qan axıtmaq, zəncir vurmaq hərəkətlərinə yol vermək, dini etiqadımızı, dinimizi gözdən salan elementlərə fürsət vermək, dinimizi gözdən sala bilən hallara yol vermək olmaz. Təziyə məclislərində Kərbəla şəhidləri ilə yanaşı, vətən uğrunda qəhrəmancasına şəhid olanlar unudulmamalı, onların şəninə xütbələr və dualar oxunmalıdır. Məclislərin missiyası ən çox adamları ağlatmaq deyil, bu hadisələrə aydınlıq gətirmək olmalıdır. Aşura adı altında müxtəlif icazəsiz yürüşlərə, insanların asayişini və rahatlığını pozan hərəkətlərə yol verilməməlidir.

Xatırladaq ki, İmam Hüseyn (ə) bacısı xanım Zeynəbə şəhid olacağını xəbər vermiş, lakin ona ağlayıb göz yaşı tökməyi, saçını yolaraq fəryad qoparmağı qadağan etmişdir. İmamın (ə) şəhidlik fəlsəfəsini dərindən öyrənmək, onun mahiyyətinə və istəyinə hörmətlə yanaşmaq hamımızın borcudur.

Bir məsələni qeyd edək ki, böyük dövlətlər mədəniyyətlərin qovuşmasına maraq göstərirlər. Bu da milli-mənəvi dəyərlərimizin deformasiyaya uğramasına gətirib çıxara bilər. Ona görə də xalqımız öz mənəvi dəyərlərini qoruyub saxlamalı, yad təsirlərdən qorumalı, xurafata meydan verməməlidir.

# Pensiyaçılar, uşaqlar, əlillər icbari tibbi sığorta haqqından azad oluna bilərlər

İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ

"İcbari tibbi sığorta haqqında" qanuna edilməsi gözlənilən dəyişikliklərin bəzi ilkin detalları məlum olub.

Parlamentin, payız sessiyasında icbari tibbi sığorta ilə bağlı yeni qanun layihələrinin müzakirələrə çıxarılması, eyni zamanda, mövcud qanunlara yeni dəyişikliklərin edilməsi nəzərdə tutulur.

"Artıq cəmiyyət bu məsələnin icrasını, tətbiqini çoxdan gözləyir və arzu edir. Bu, cəmiyyətin sosial sifarişi olaraq qarşıda dayanır. Eyni zamanda, dövlətin özünün bu məsələ ilə bağlı yekdil mövqeyi, iradəsi ortadır.

Bu baxımdan, həm parlament, həm icbari sığorta ilə bağlı Dövlət Agentliyi, həm də Nazirlər Kabineti birlikdə bu məsələnin tətbiqinə və icrasına stimul verəcək, prosesi sürətləndirəcək qanunvericilik aktları üzərində işlərini davam etdirir.

Bu sənədlər qəbul olunduqdan sonra bütün Azərbaycan miqyasında icbari tibbi sığortanın tətbiqi mümkün olacaq. Yaxın illərdə isə icbari tibbi sığorta Azərbaycanın bütün ərazisində həyata keçiriləcək".

İcbari tibbi sığorta haqqına gəlincə, parlamentdən bildirilib ki, Azərbaycanın işləyən vətəndaşları əməkhaqlarından müəyyən faizlər ödəyəcək, işləməyən, bizneslə məşğul olan vətəndaşlar isə müəyyənləşdirilmiş dərəcədə tibbi sığortaya töhfələrini verəcəklər.

"Amma bəzi kateqoriyalar, məsələn, pensiyaçılar, uşaqlar, əlillər icbari tibbi sığorta haqqını ödəməkdən azad oluna bilərlər. Dövlət bu vəzifəni öz üzərinə götürə bilər. Bu məsələ üzərində dəqiqləşdirmələr aparılır", - deyə sonda qeyd edilib.

# Yarımilliyin sosial-iqtisadi inkişaf göstəriciləri

### KƏND TƏSƏRRÜFATI

2018-ci ilin yazında əlverişsiz hava şəraitinin olmasına baxmayaraq yazlıq bitki toxumlarının səpilməsi işi tam sürətlə həyata keçirilmişdir. Yaz əkininin yekun məlumatlarına əsasən, cəmi 2035 ha yazlıq dənli, dənli-paxlalı, kartof, tərəvəz və digər bitkilər əkilmişdir. O cümlədən 230.78 ha sahədə lobya, noxud və sairə paxlalılar, 1369 ha kartof, 320 ha sahədə müxtəlif növ tərəvəz və115.22 ha sahədə digər yazlıq bitkilərinin toxumları səpilmişdir. 2018-ci ildə 27 ha sahədə tütün bitkisinin əkini həyata keçirilmişdir.

2018-ci ilin ilk 6 ayında kənd təsərrüfatı məhsullarının ümumi buraxılışı 11838.5 min manat təşkil edir. Bu 2017-ci ilin eyni dövründəkindən 386min manat və ya fiziki həcm indeksi ilə 3.2% çoxdur.

12106.8 min manatdan 975.7 mini bitkiçiliyin, qalan 10862.8 min manatı və ya 91.8%-i heyvandarlığın payına düşür.

Kənd təsərrüfatı müəssisələri,əhali və fermer təsərrüfatları üzrə yazlıq bitkilərin əkini başa çatmışdır. Belə ki, 01 iyul 2018-ci il vəziyyətinə 2035 ha sahədə müxtəlif növ yazlıq bitkilər əkilmişdir.

Bu əkinlərdən 241.18 ha yazlıq dənli və dənli paxlalı bitkilər 1369 ha kartof, 320 ha hər cür tərəvəz və 104.8 hektarı digər bitkilər olmuşdur.2017-ci ilin yaz əkinlərindən 16.8 ha və ya 0.8% çox əkin əkilmişdir.

01 iyul 2018-ci ildə 13 hektar payızlıq taxıl biçilmiş və 34.8 ton məshul istehsal olunmuşdur.Hər hektardan 26.8 sentner məhsul götürülmüşdür ki, bu da keçən ilin eyni dövrüilə müqayisədə 2.0 sentner azdır. Taxıl yığımı davam edir, eyni zamanda kartof və tərəvəz yığımı da başlanmışdır. Cari ilin birinci yarısında diri çəkidə 3525.7 ton mal qara və quşəti, 9625.3 ton süd, 215.2 ton yun (fiziki çəkidə) və 2965 min ədəd yumurta istehsal edilmişdir.

2017-ci ilin eyni dövrü ilə müqayisədə 1238.3 ton ət, 74.0 ton süd və 404 min ədəd yumurta istehsalı artmışdır. 7.8 ton yun istehsalı azalmışdır.

2017-ci il iyulun 1-i vəziyyətinə nisbətən 936 baş qara-mal, o cümlədən 61 baş inək və camış,570 baş qoyun-keçi artmışdır. 2018-ci ilin birinci yarısında keçən ilin eyni dövründəkinə nisbətən kənd təsərrüfatı məhsullarının ümumi həcmi 1,2% artmışdır. O cümlədən heyvandarlıq məhsullarının həcmi isə1.01% artmışdır.

Rayonda fəaliyyət göstərən qeydiyyata alınmış, kənd təsərrüfatı müəssisələrindən 1 dövlət və 21 qeyri-dövlət kənd təsərrüfatı müəssisələrinin əsas məşğuliyyəti qoyunçuluqdur. O cümlədən 1 kənd təsərrüfatı müəssisəsi quş əti istehsalı ilə, 2 müəssisə isə bitkiçiliklə məşğuldur. 01 iyul 2018-ci ilə qoyun-keçilərin baş sayı dövlət təsərrüfatında 8216 baş olmaqla ümumi qoyunların 7.4%-i, kollektiv təsərrüfatlarında 10636 baş və ya ümumi qoyunların 9.5%-i təşkil edir. Qoyun-keçilərin qalan hissəsi isə şəxsi təsərrüfatların payına düşür.

### HEYVANDARLIQ

Heyvandarlıq sahəsində həm mal-qaranın baş sayı, həm də məhsul istehsalı dinamik olaraq artır. Keçən ilin eyni dövründənkindən iri buynuzlu mal-qaranın baş sayı 1.2% artmış, qoyun və keçilərin baş sayı isə 9.6% azalmış, diri çəkidəət istehsalı 1.8%, süd istehsalı 0.5% artmışdır. Yumurta istehsalı isə 404 min ədəd artmışdır. Yun istehsalı 13.8 ton və ya 6.0% azalmışdır.

Hamıya məlum olduğu kimi və kənd adamları bilirlər ki, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının hansı sahəsi ilə məşğul olmaq lazımdır. Hazırda təsərrüfatın ən sərfəli sahəsi maldarlıq və qoyunçuluqdur. Ət və ət məhsullarının qiyməti hal-hazırla 9-10 manatdır. Bu hesaba rayonun ayrı-ayrı kəndlərindəşəxsi təsərrüfatlarda çoxlu sayda qara-mal və qoyun-keçi saxlayırlar.

Muğan qışlağı və rayonun yaylaqlarında 111 mindən çox qoyun-quzu saxlanılır. Lakin son vaxtlar fermer təsərrüfatlarının Muğan qışlağından əkinlə əlaqədar sıxışdırılması, rayon üzrə on iki minə yaxın xırdabuynuzlu mal-qaranın azalmasına və fermer təsərrüfatlarının bir çoxunun fəaliyyətinin dayandırılmasına səbəb olmuşdur.

Rayonun Pirasora, Osiyodərə, Çayrud, Veri, Şingədulan və s. kənd ərazi dairələrinin kəndlərində hər bir şəxsi təsərrüfatlarda 6-11 baş qaramal və 30-50 baş qoyun-keçi saxlayan təsərrüfatlar ildən-ilə artmaqdadır. Hətta bəzi şəxsi təsərrüfatlar 300-500 və yuxarı sayda qoyun-quzu saxlayırlar.

### BİTKİÇİLİK

Heyvandarlıqla yanaşı rayonun kəndlərində bitkiçilik məhsullarından kartof, tərəvəz, taxıl və digər əkin növləri də inkişaf etdirilir. Bitkiçilik məhsullarının əkilib yığılması üçün kifayət qədər kənd təsərrüfatı texnikası yoxdur. Mövcud texnikanın bir qismi köhnədir və bugünkü tələbata cavab vermir. Xüsusilə, şum traktorları və taxıl biçən kombaynların yarısı köhnəlmiş vəziyyətdədir.

2018-ci ilin birinci yarısında dövlət və kollektiv təsərrüfatlarda və bütün təsərrüfat kateqoriyalarında 726.7 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2017-ci ilin eyni dövründən 28.9 min manat və ya 1.04 % çoxdur.

Dövlət təsərrüfat müəssisəsində 21 nəfər işçi çalışır və cari ilin 6 ayında onlara 25.4 min manat əmək haqqı verilmişdir. Hər işçinin orta aylıq əmək haqqı 201.6 manatdır.

Cari ilin yanvar-iyun aylarında özəl kollektiv təsərrüfatlarında 115 nəfər işçiyə 84.02 min manat əmək haqqı ödənilmiş və hər işçinin orta aylıq əmək haqqı 121.8 manat olmuşdur. Keçən ilin eyni dövründən 65482 manat və ya 5.6% azəmək haqqı ödənilmişdir. Buna səbəb isə kəndli fermer təsərrüfatlarının bir çoxunun fəaliyyətini dayandırmasıdır.

01 iyul 2018-ci ilə rayonda müxtəlif təşkilatı-hüquqi formalı 235 vahid kənd təsərrüfatı qurumları mövcuddur və rəsmi qeydiyyatdan keçmişlər.

### SƏNAYE

2018-ci il iyulun 1-i vəziyyətinə rayonda 3 sənaye müəssisəsi fəaliyyət göstərmişdir. Bunlardan biri Elektirik Paylayıcı Şəbəkəsi, digərləri Rayon Su Kanalizasiya İdarəsi və Lerik Rayon Qaz İstismar İdarəsidir.

Bu təşkilatlar 2018-ci ilin 6 ayında 440.3 min manatlıq məhsul istehsal etmişlər. Keçən ilin eyni dövründən 40.8 min manat və ya 1.5% az iş görülmüşdür. Bu müəssisələrdə 119 nəfər işçi çalışır ki, bu da əvvəlki illərdən 3 nəfər azdır. Bu ilin 6 ayı ərzində hər işçinin orta aylıq əmək haqqı 518.5 manat olmuşdur. 2017-cı ilin 1-ci yarısı ilə müqayisədə 23.5 manat və ya 4.7% əmək haqqında artım olmuşdur.

Yuxarıdakı fikirlərdən aydın olur ki, sənaye müəssisəsində tez-tez islahatlar getdiyi üçün işçilərin sayı habelə əmək haqqı dəyişilir.

### NƏQLİYYAT

İqtisadiyyatın digər sahələrində olduğu kimi rayon nəqliyyat sahəsinin inkişafında müşahidə olunan artım cari ilin iyun ayında da davam etmişdir.

Rayonun bütün nəqliyyat sektorundan yük və sərnişin daşınmasından 1475,0 minmanat gəlir əldə olunmuşdur.

Fiziki şəxslər üzrə yükdaşınmasından 994,0 min manat, sərnişin daşınmasından isə 481,0 min. manat gəlir əldə edilmişdir..

Əhaliyə göstərilən nəqliyyat xidmətinnin həcmi artmaqla yanaşı keyfiyyəti də yaxşılaşmışdır.

Nəqliyyat sektorunda182 min ton yük, 862 min sərnişin daşınmışdır ki, bu da keçən ilin eyni dövründən 2.1% çoxdur.

### ƏSASLI TİKİNTİ

Rayon ərazisində 1 tikinti təşkilatı 2018-ci ilin altı ayı ərzində fəaliyyət göstərməklə əsasən təmir işləri ilə məşğul olmuşdur.

Cari ilin yanvar-iyun aylarında tikinti təşkilatları 480.8 min manatlıq iş görmüşlər ki, buda 2017-ci ilin 6 ayı ilə müqayisədə 80.0 min manat və ya 19.9% çoxdur.

Görülən işlərdən əsaslı tikinti işi olmamışdır. Tikinti işlərinin 400.8 min manatı isə cari təmir işləri olmuşdur. Tikinti təşkilatlarından 25 saylı yol tikinti idarəsi 480.8 min manatlıq işgörməklə ümumi tikinti işlərinin 100% qədərini yerinə yetirmişdir. ATF-də 2018-ci ilin 6 ayı ərzində iş görülməmişdir.



***Nizaməddin Muradov, Lerik rayon statistika idarəsinin rəisi***

Tikinti təşkilatlarında 85 nəfər fəhlə və qulluqçu çalışırlar. Bunlara 6 ay ərzində 165000 manat əməkhaqqı verilmişdir və hər işçinin orta aylıq əmək haqqı 328.5 manat təşkil edir ki, bu da 2017-ci ilin eyni dövründən 46.2 manat və ya 16.4% çoxdur.

2018-ci ilin 6 ayı ərzində əhalinin vəsaiti hesabına 9 şəxsi yaşayış ev itikilib istifadəyə verilmişdir ki, bunların da sahəsi 917.0 $m^2$-dir. İstismara verilmiş yaşayış evlərinin dəyəri 252.9 min manatdır. Keçən ilin müvafiq dövründən 5 ədəd çox yaşayış evi tikilib istifadəyə verilmişdir.

### REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI

Möhtərəm Prezidentimizin məlum Sərancamma əsasən 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə əlaqadar rayonumuzda çox böyük işlər görülmüşdür. Bununla bağlı rayon daxili yollar bərpa edilir, şəhərdən başqa 50 kəndə təbii qaz xətti çəkilmiş və 4374 evdə təbii qaz yanır.

Yeni turizim istirahət mərkəzləri tikilir.

Yeni su və kanalizasiya xəttində işlər gedir. Mobil tipli elektirik stansiyasının tikintisi başa çatmış, lakin istifadəyə verilməmişdir.

Noda-Xanəgah kənd yolunda 36 km uzunluğda yola asfalt çəkilmişdir və 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafıı Dövlət Proqramının icrası ilə bağlı digər işlər də görülür.

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkşafı Dövlət Proqramı"nda rayonumuzun sosial-iqtisadi inkşafı ilə bağlı 22 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Dövlət Proqramının vaxtında icra edilməsindən ötrü rayon icra hakimiyyəti tərəfindən ayrı-ayrı əlaqədar yuxarı dövlət orqanlarına müraciətlər edilmişdir.

### YENİ AÇILMIŞ İŞ YERLƏRİ

2018-ci ilin təkcə II rübündə cəmi 112 yeni iş yeri açılmışdır. Bunlardan 64-ü fiziki şəxslərdə, 48-i isə müvəqqəti iş yerləri kimi mövsümi xarakterlidir.

Cari ilin 6 ayında isə 434 yeni iş yerləri açılmışdır. Bundan 119-u fiziki şəxslər, 278-i mövsümi, 37-si isə mövcud müəssisə və təşkilatlarda açılmışdır.

# Rövşəni siz də tanıyın

## Özünü xəstənin yerinə qoyasan...

Rövşən İmanovun yeniyetməlik çağları idi. Ailə süfrə başına yığışmışdı. Yeməkdən sonra buğlanan ətirli çay içə-içə Seydəmir kişi ortancıl oğlu Rövşəndən soruşdu:

- Oğul, qardaşların oxuyub sənət sahibi olurlar. Bəs sənin fikrin nədir?

Rövşən atasının narahatlığını hiss etdi. Atası təkcə onun hansı sənəti, peşəni seçməsi ilə deyil, həm də oğlunun gələcək həyat yolunu müəyyənləşdirən arzusu ilə maraqlanardı. Seydəmir kiçi özü el-obaya gərək olan sənət sahibi idi. Halal zəhməti ilə çörək qazanmışdı, övladlarını dolandırmışdı. Təkcə Siyov kəndində deyil, qonşu el-obada yaxşı hörmət qazanmışdı. Bir ağsaqqal, məclis adamı kimi də tanınmışdı. İnsanlara gərək olmağı müqəddəs borc, insanlıq vəzifəsi sayırdı.

Rövşən dedi:

- Ata, çox haqlı sual verirsən. Hamımız oxuyub eyni sənət sahibi ola bilmərik. Mən çoxdandı ağ xalat geyinib, xəstələrə şəfa verən tibb işçisi olmağı qərar vermişəm.

- Oğul, bilirəm ürəkdən bəyəndiyin peşəni seçmisən. Onsuz da bizim tərəflərdə həkimə, feldşerə ehtiyac çoxdur. Bir tövsiyyəmi unutma: həmişə kimsə dava-dərmana möhtac olub, sənə pənah gətirəndə özünü xəstənin yerinə qoyasan. İmkanına, vəzifəsinə baxmayasan. İynədərmanla bərabər, çalışasan ki, hər sözün, söhbətin, hərəkətin, sifət cizgilərin xəstəyə sağalmaqda kömək etsin. Unutma ki, xəstə ilə həkim birləşəndə xəstəlik məğlub olur...

İlahi, atası necə də müdrik nəsihətlər verirdi Rövşənə! Seydəmir kişini Siyov ərazisində sevdirən, hörmət-izzət sahibi edən məhz onun dünyagörüşü, müdriklərdən öyrənməsi, paktik həyatla nəzəri tərcübəni vəhdətdə götürməsi idi...



### Arzunun ardınca yol getdi Rövşən

...1980-ci ilin yayı idi. Rövşənin ürəyindəki duyğular, istəklər onu arzu adlı bir ümmana qovuşdurmağa tələsdirdi. Bakı mühiti ona sirli-soraqlı gəlsə də, şəhər həyatına, tələbəliyə öyrəşməli idi. Həmin il Bakı 2 nömrəli Tibb Məktəbinə daxil oldu. İlk aylarda qəribliyə düşdüyünü hiss edirdi. Haylı-haraylı tələbə həyatı, oxuyub imtahan-zaçot vermək, kitablarla sirdaş olmaq, hərdən teatra, kinoya getmək, muzeylərə, Bakının tarixi abidələrinə baş çəkmək Rövşəni darıxmağa qoymurdu. Şəhərdə yaşasa da, uca dağlara sığınmış Siyovun təkrarsız mənzərələri, ev-eşiyi, valideynləri, dostları tez-tez yuxusunda görürdü.

Günlər aylara, aylar da illərə qovuşdu. Tələbə həyatı sona çatdı. Doğma rayon, kənd ona "gəl-gəl" deyirdi. Öncə Veri-Əliabadı, sonra Daster kənd feldşer məntəqəsində işlədi. Rəhbərlik ona Qışlaq kənd tibb məntəqəsinə müdir təyin etdi. Qonşu Siyov, Zərikuməco, Xəlifə bulaq kəndlərinə gecənin bir aləmində olsa da çağırışlara getdi, heç kəsi naümid qaytarmadı. Özünü həmişə xəstənin yerində hesab etdi, əhalinin cansağlığına böyük önəm verdi. Sadə, lakin gərəkli bir tibb işçisi kimi tanındı. Elə onu əhaliyə sevdirən, hörmətini artıran da bu oldu... Gələn il səhiyyə sahəsində çalışmasının 40 ili tamam olacdaq Rövşənin.

### Mətbuatsız qala bilmirəm...

Rövşən İmanovdan soruşdum:

***- Neçə ildir mətbuatda imzanız görünür? Mətbuat sizin üçün nə deməkdir?***

- 1984-cü ildən mətbuatla ünsiyyət qurmuşam. Əvvəllər "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində informatik yazılarım çap olunub. O vaxtlar bizə müəllif haqqı - qonorar verilərdi. Elə şirin idi. Pulumuzun qurtaran vaxtı dadımıza çatırdı.

İndiyədək özümü mətbuatdan ayrı hesab etmirəm. Qəzet, jurnal bir aynadır. Nöqsan olan aynanı sındırmaqdansa, üzündəki ləkələri silməli, naqisliklərdən xilas olmalıdır. Tənqidi yazılarım da çap olunub. Ən çox kəndimizin problemlərindən yazmışam. Respublikanın bəzi qəzet və jurnallarında bədii, publisistik yazılarım çap olunsa da, ən çox "Lerik" qəzeti mənə doğmadır.

***- İnternetlə aran necədir?***

- İnternetdən xəbərim var. Bəziləri ondan əyləncə məqsədi ilə istifadə edirlər. Virtual aləm çətin məsələdir, fəsadlar böyükdür, internet ciddi adamlara daha çox lazımdır. Düşünürəm ki, internet mətbuatı hələ uzun müddət əvəz edə bilməz.

- Söz düşmüşkən, yadıma düşdü: - Sizin "Oxu məni" qəzetində bir neçə yazınız dərc olunub. Hamısı da sizin uğursuz məhəbbətinizdən söz açır...

### 38 ildir gecikmiş uğursuz məhəbbət

- Yaralı yerimə toxunursunuz, - deyir Rövşən. - Texnikumda oxuyanda bir qız sevirdim. Adı Təranə idi. Onunla ailə həyatı qurmağa mən gecikdim, o, ərə getdi. Davradibi kəndində yaşayan qohumumuz Yazgül xanımla ailə həyatı qurdum. Çox səmimi, və mehriban idi. O vaxtlar göz yaşlarım qurumadı. "Oxu məni" qəzetində silsilə yazılarım çap olundu. Televiziyaya məktublar yazdım. Xalq yazıçısı Çingiz Abdullayevə məktubla müraciət etdim. O, "Qar üstündə qızıl-gül" romanında uğursuz məhəbbətimdən bəhs edib.

***- Bəs sonra?***

- Hər şeyi danışmaq mənə çətindir. Sevdiyim qız mənimlə görüşmək üçün cənuba gəlib. Onu iki dəfə Lənkərandan, sonra Piran kəndindən qaytarıblar. Piranda ona deyiblər ki, bəs mənim yaşadığım kəndin yolları çox pisdir, sən xarici markalı maşınla ora gedib çıxa bilməyəcəksən. Telefonunu öyrənib, deyib ki, görüşünə gələrəm, ancaq nədənsə gəlmir ki, gəlmir...

Məhəbbətim göz yaşıyla doludur...
Buludlardan sordum onu,
nə bir səs, nə soraq yoxdur.

Bir də qaldı, yazıya sonluq vermək. Bəzən həyatın yazılmamış qanunları ilə imtahana çəkilirik. Kiminin əvvəli, kiminin axırı - deyirlər. Allah axırını xeyrə calasın, Rövşən!..

***İdris***

# Lerikdə Antik dövrə aid yeni tapıntılar



AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Lerik rayonunun Gürdəsər və Kirəvurd kəndlərinin inzibati ərazisinə daxil olan abidələrdə Antik dövr üzrə Lerik arxeoloji ekspedisiyasının apardığı tədqiqatlar başa çatıb.

İnstitutdan Publika.az-a verilən məlumata görə, arxeoloji qazıntılar zamanı Gürdəsər kəndinin inzibati ərazisinə daxil olan Piboztəpə antik dövr nekropolunda 27 qəbir tədqiq olunub. 2012-ci ildən ərazidə başlanmış arxeoloji tədqiqatlar nəticəsində Piboztəpədə bu günədək ümumi 190 qəbir aşkar olunub. Bunlardan 170-i Antik dövrə aiddir. Qəbirlər səciyyəvi cəhətlərinə görə e.ə. V-III əsrlərə aiddir. ABŞ-ın elmi laboratoriyalarında aparılmış radiokarbon analizlərin nəticələri də bu tarixi təsdiqləyir.

Antik dövr üzrə Lerik arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminli bildirib ki, aşkar olunmuş məzarlar müxtəlif formadadır. Qəbirlərdəki ölülər bükülü vəziyyətdə, sağ və ya sol böyürləri üstə dəfn edilib. Dəfn edilənlərin yanlarında silahları, qılıncları, bıçaqları və nizələri qoyulub. Bundan əlavə, qəbirlərdə müxtəlif bədii tərtibatlı saxsı qablar da aşkarlanıb. Bu saxsı qabların bəziləri heyvan formasındadır ki, bu da xüsusi ayinlərlə əlaqədardır. Dəfn edilənlərin üzərindən şəxsi əşyaları, tunc və gümüşdən bəzək əşyaları, müxtəlif tərkibli muncuqlar da tapılıb.

C.Eminli əlavə edib ki, 2016-cı ildən Antik dövr üzrə Lerik arxeoloji ekspedisiyasına amerikalı mütəxəssislər də dəvət olunub. Artıq üçüncü ildir ki, ekspedisiya beynəlxalq statusda fəaliyyət göstərir. Xarici mütəxəssislər insan və heyvan sümüklərinin araşdırılması üzrə antropoloji tədqiqatlar və ətraf ərazilərdə abidələrin varlığını müəyyən etmək üçün xəritələşmə işləri aparırlar.

# Şəfa verən sağ olsun

Yaşım 80-i haqlayıb. Ömrüm-günüm zəhmətlə keçib. Halal zəhmətlə yaşamağı, xeyirli işlər görməyi həyat amalımdan ayrılmaz hesab etmişəm. Şəhər, qəsəbə və kəndlərin abadlaşmasını, dövlətimizin iqtisadi cəhətdən güclənməsini, insanların yeni dövrə qədəm qoymasını, onların hərtərəfli yüksəlişə nail olmasını gördükcə sevinmişəm. İllər ötdükcə yaş öz işini görür. Səhhətimiz dəyişir, bəzən də həkimə möhtac oluruq. Yaxşı ki, şəfa verən həkimlər köməyimizə çatır. Öd kisəmdə daş xəstəliyi diaqnozu ilə Lənkəran Diaqnostik Mərkəzinə müraciət etdim. Burada təcrübəli cərrah Pərviz Hacıyev məni əməliyyat etdi. Öd kisəm sıradan çıxdığı üçün onu bədənimdən xaric etdi. Ağrılarım azaldı, səhhətim yaxılaşdı. İndi özümü sağlam və gümrah hiss edirəm.

"Lerik" qəzetinin əməkdaşlarından xahiş edirəm ki, mənə və çoxlu xəstələrə sağlamlıq bəxş edən şəfalı əllərin sahibinə - Lənkəran Diaqnostik Mərkəzinin cərrahı Pərviz Hacıyevə mənim və ailə üzvlərimin minnətdarlığını çatdırsınlar.

***Səyadulla Seyfullayev, Babaküçə kəndinin sakini***



***Əkrəm Xürrəmi***

### Nankor olsam vurun başıma mənim

Ey ustad, günlərim mənasız keçsə,
Vallah inanmazsan yaşıma mənim.
Çox bəlalar görmüş dərd-qəmli gənclik,
Onunçün dən düşmüş saçıma mənim.

Mən dağlaq oğluyam, qocalsa ürək,
Yadımdan çıxmayır bir arzu-istək.
Haqlını-haqsızdan gərək biz seçək,
Seçməsək dən düşər qaşıma mənim.

Yazaram həqiqət hər axşam-səhər,
Ondan əl məkmərəm ölənə qədər.
Öyrənmək istəsən sirrimi əgər,
Baxın, sirli insan, daşıma mənim.

Bura Məmmədhüseyn, Fazil oylağı,
Gözəldir meşəsi, ucadır daşı.
Qaynayır dağlarda sərin bulağı,
Gəlin baxın ana yurduma mənim.

Əsgər tək durmuşam keşiyində mən,
Gərək ayıq olam hər işimdə mən.
Yatmışam dahilər beşiyində mən,
Nankor olsam vurun başıma mənim.

*1990*

### Gürdəsər kəndi

Üç min il tarixə imzanı atdın,
Böyük alimləri heyrətə saldın.
Dağlara qalxdıqca adam yorulur,
Ey qədim məskənim, Gürdəsər kəndi.

Tapılan hər qəbir bir xəzinədir,
Üzə çıxan nizə ucu, qılınc, təbərzin.
Döyüşdən, vuruşdan verir xəbəri,
Tapılan hər qəbir bir xəzinədir,

Əkrəm edəcəkdir adını uca,
Tarixin sirrini o, aça-aça.
Görüçünə gələr cavan, həm qoca,
Ey qədim məskənim, Gürdəsər kəndi.

# Arxaya getmədilər

*Hekayə*

Sovet döyüşçüləri Lyubitovka kəndinə axşamüstü daxil oldular. Faşist cəlladları kəndi çapıb-talamış, evləri yandırmışdılar. Uçuqlardan boz tüstü burumları qalxırdı. Yaxındakı bir ağaca mərmi dəydiyindən ortasından qırılıb yerə düşmüşdü. Kəndin faciəsi döyüşçülərin hədsiz qəzəbinə səbəb olmuşdu. Dinib-danışmayan əsgərlər papiros eşir, dişlərini bir-birinə sıxırdılar. Baxışlar qəmli və ağır idi. Kim bilir, vaxtsız həlak olmuş yeniyetmələrin ürəyində neçə-neçə arzu donub qaldı. Necə yarımçıq nəğmə solan dodaqlarda susdu...

Hər şey sükut edirdi. Sakitliyi arabir eşidilən boğuq gurultular pozurdu. Görünür, haradasa döyüş gedirdi...

Getdikcə qaş qaralır, şər qovuşurdu. Günəş şəfəqli rübəndini dağlar arxasına yığan zaman kəşfiyyatçı iki ixtiyar qoca ilə qərargaha qayıtdı. Onlar ömür-gün yoldaşı idilər. Beli qəm-qüssədən bükülmüş Afanasi və mehriban Valentina müharibə başlanan'ı üzülüb lap əldən düşmüşdülər.

Kəşfiyyatçı Fyodr əsgəri təzim edərək dedi:

- Yoldaş komandir, kənddə bu iki qocadan savayı heç kim yoxdur. Gəlmək istəmirdilər. Bərk sarsılıblar qocalar. Faşistlər onların oğlunu, gəlinini və nəvəsini öldürüblər. Faşistlər kəndə soxulanda qocalar meşədə itmiş inəyi axtarırlarmış. Qayıdıb görüblər ki, qaniçən faşistlər kəndi cəhənnəmə döndəriblər.

Komandir qocalara mehribanlıqla yanaşıb:

- Dərdinizə şərik oluruq, - dedi. - Faşistlərin vəhşiliyi əvəzsiz qalmaz. Çox çəkməz ki, biz onları ölkəmizdən iti qovan kimi qovarıq. Siz yenə kəndinizdə yaşar, xoş həyat sürərsiniz.

- Fedya, qocaları qazmaya apar, - deyə komandir göstəriş verdi. - Onlara yemək və istirahətlik verin.

- Oldu, yoldaş komandir, - deyə Fyodr təzim etdi.

Komandir ağır addımlarla gedən qocaların ardınca baxıb papiros çıxartdı və alışdırdı. Yadına öz atası, anası düşdü. Onların da bu lyubitovkalı qocalar kimi saçları ağarmış, belləri bükülmüşdü. İndi hardaydılar görəsən? Arxa cəbhəyə göndərilən zaman qatar düşmən bombasına tuş gəlməyib ki?

Komandir ata-anası barədə fikirləşəndə ürəyi sıxılırdı. Lənətə gəlmiş müharibənin işi uzundur. O adamlara əzab-əziyyətdən, qan-qadadan, məhrumiyyətdən başqa nə gətirib? Heç nə!..



* * *

Sovet döyüşçüləri düşmənə yaxşıca "dərs verib" müvəqqəti mövqelərdə möhkəmləndilər. Vuruşmanı dayandırmaq əmri gəldi. Afanasi ilə mehriban Valentina yaralı əsgərlərə qulluq edir, xırda-para işlər görürdülər ki, fikirləri qalsın.

Bir gün "kəndi qısa müddətdə tərk etməli" əmri gəldi. Komandir qocaları yanına çağırıb dedi:

- Mehriban qocalar, sizi arxaya göndərsək yaxşı olar. Həyatınızın təhlükə altına düşməsinə razı deyilik. Düşmən güllləsi naxələf şeydir. Arxa cəbhədə olmaq salamatlıqdır. Vuruşan cəbhəyə orada köməyiniz dəyə bilər...

- Arxada bizə öldürülmüş əzizlərimizi qaytararlarmı? - Afanasi ilə Valentina bərabər soruşdular. - Onlarsız yaşamaq nəyimizə gərəkdir? Kaş onların əvəzində biz həlak olaydıq. Axı, nə ömür-gün görmüşdülər? Övladlarımızın nə günahı vardır? Axı, onların yaşamağa haqqı vardı. Belə də zülm olar?..

Çox dilə tutdular. Qocalar, "ölərik, geri dönmərik" - dedilər. Onları sakit bir yerə göndərmək üçün heç bir yalvarışın, xahişin nəticəsi olmadı.

Sovet əsgərləri müəyyən edilmiş vaxtda kənddən uzaqlaşdılar. Alman kəşfiyyatçıları döyüşçülərimizin hər bir hərəkətini addımbaaddım izləyirdilər. Onlardan biri təpəyə çıxdı. Buradan kənd apaydın görünürdü. İki nəfər kəndin kənarında qoşa qazılmış təzə qəbirləri qollarıyla qucaqlayaraq uzanmışdı. Kəşfiyyatçı düşündü ki, faşistlərə tələ qurulub. O, avtomatdan qırıq-qırıq atəş açdı. Qocaların bədəni deşik-deşik oldu. Afanasi tərpənmədi, Valentina isə qıvrıldı, beli üstə uzandı, əllərini ilahi dərgaha tutdu.

Güllədən, ölümdən qorxmayan qocalar ölümə baş əymədilər. Onların dəyanəti, övlad məhəbbəti əks-hücuma keçən əsgərlərin qəzəbini artırdı. Qoca Valentinam və Afanasinin Vətən və övlad məhəbbəti onları əbədi heykələ döndərdi...

***İdris Şükürlü***

# Ağacların nə günahı!



Müxbirimiz bu şəkilləri Ləkərçayın sol sahilində talan edilmiş bir yerdə çəkmişdir. Görəsən bu ağacların günahı nədir?

Lerik rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin meşəbəylərinin, Lənkəran Regional Meşə Mühafizəsi və Bərpası İdarəsinin, 1 saylı Təbi Sərvətlər və Ekologiya idarəsinin mütəxəssislərinin bu talançılıqdan, təbiətə divan tutulmasından xəbərləri varmı?

Qəzetimizi izləyin.



## Allah rəhmət eləsin!

Lerik RİH başçısı Rövşən Bağırov başçılıq etdyi aparatının işçiləri ilə birlikdə Çayrud kənd ərazi icra nümayəndəsi Xanlar Həmidova, qardaşı
**Ağalar Həmidovun**
vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.

Ağamir Cavad, Qafar Cəfərli, Əlimməmməd Ağazadə, İdris Şükürlü, Əbdülhüseyn, İlqar, Əbdürrəhman, Nəbi Mirzəyev, Ələkbər Kərimov Çayrud kənd ərazi icra nümayəndəsi Xanlar Həmidova, qardaşı
**Ağalar Həmidovun**
vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 500
Sifariş: 469

